## Sumqayıt kimya sənayesi — 70

# Həyatı gənclərə örnək kimyaçı

### Təbiət Cəfərovun kimya sənayesində çalışdığı illər ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf edirdi

**Dostları, yaxınları Təbiət müəllim haqqında danışanda ilk sözləri "Əqidəsinə sadiq insan" sözü olur. Onunla görüşüb söhbət edən hər kəs bu insanın səmimiyyətinə heyran qalır, yüksək mədəniyyət və alicənablıq, milli mənəvi dəyərlərə bağlılıq kimi keyfiyyətlər, bir növ, onun portret cizgilərini əks etdirir, işıqlı çöhrəsi, şirin ləhcəsi xoş ovqat yaradır.**









Söhbət Sumqayıtın qurucuğuluğunda, şəhərin ictimai-siyasi və mədəni həyatında silinməz izlər qoymuş, uzun illər məsul vəzifələrdə çalışmış, ən əsası, sadə və səmimi insan, əmək veteranı Təbiət Qasım oğlu Cəfərovdan gedir.

Ömür payının ən gözəl, ən yaddaqalan illərini Sumqayıtla, gənclik şəhərinin ictimai-siyasi, iqtisadi-mədəni həyatı ilə bağlayan Təbiət Cəfərovun bu qızıl payız günlərində 80 yaşı tamam olur. Şərəflə, ləyaqətlə yaşanan bu ömrün özü bir kitabdır. Kitabı vərəqlədikcə, Təbiət müəllimin keçdiyi həyat yolu kino lenti kimi gözlərimiz önündə canlanır...

1935-ci il oktyabrın 12-də qədim Şəmkirin Dağ Daşbulaq (İrmaşlı) kəndində dünyaya göz açan Təbiət Cəfərov hələ məktəb yaşlarından əlini zəhmətə alışdırıb, kolxozda işləyərək ailələrinə köməklik edib. 1952-ci ildə Bakı Mədəni-Maarif Texnikumuna qəbul olunub. 1956-cı ildə texnikumu müvəffəqiyyətlə başa vuraraq təyinatla rayon Mədəniyyət evində bədii rəhbər vəzifəsində işləməyə başlayıb. Sonra ordu sıralarında xidmət edib. Nümunəvi xidmət göstərdiyinə görə partiya sıralarına qəbul edilib. 1961-ci ildə komsomol çağırışına qoşularaq "Göylərə meydan oxuyan" Sumqayıta üz tutub.

Şəhərdə aparılan genişmiqyaslı tikinti-quruculuq işləri hərbi xidmətdən yenicə qayıtmış bu gənci valeh edir. Bu səbəbdən də ixtisası üzrə təklif olunan işdən imtina edərək yenicə tikintisinə başlanan Superfosfat zavoduna göndərilir. Kükürd turşusu sexində aparatçı işləyir.

İstehsalat həyatı onun üçün əsl zəhmət meydanı olmuşdur. İşin mürəkkəbliyinə baxmayaraq texnoloji prosesləri dərindən mənimsəyə bilmiş, əməksevərliyi, təşkilatçılığı və ictimai fəallığı ilə kollektivin diqqətini çəkmişdir. Çox keçməyib ki, onun baş aparatçı kimi qabaqcıl iş təcrübəsi haqqında respublika miqyasında xüsusi plakatlar buraxılıb. Mərkəzi və yerli qəzetlərdə qabaqcıl iş təcrübəsi geniş işıqlandırılıb, istehsalatda qazandığı uğurlar barədə məqalələr dərc olunub.

Qabaqcıl kimyaçını qarşıda da böyük şan-şöhrət, əlçatmaz zirvələr gözləyirdi. O, 1963-cü ildə Moskvada Sov.İKP MK-nın dekabr plenumunda Sumqayıt kimyaçılarını təmsil edib. Təbiət müəllim plenum barədə təəssüratlarını bu gün də yaxşı xatırlayır: "Plenumda kimya sənayesinin gələcək inkişaf perspektivləri müzakirə olunurdu. Sumqayıt Şəhər Partiya Komitəsinin birinci katibi Nadir Balakişiyevlə birlikdə plenumda iştirak edirdik. MK-nın 1-ci katibi N.S.Xruşşovun məruzəsində və çıxışlarda şəhərimizin kimya sənayesi ilə bağlı məsələlərə də toxunuldu. Bununla əlaqədar müvafiq qərarlar qəbul edildi, perspektiv planlar müəyyənləşdirildi. İştirakçılarla fikir mübadiləsi aparır, maraqlı mövzulardan danışırdıq. Zəngin təəssüratlarla doğma kollektivimizə qayıtdım. Hər vasitə ilə etimadı doğrultmağa çalışırdım. Plenumdan qayıdandan sonra da haqqımda yazılar dərc olundu, qısa metrajlı sənədli film də çəkildi. Kimya sənayesində istehsal qurğularının işə salınmasında və istifadəsində fəal iştirakıma görə 1964-cü il 3 fevral tarixində Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanı ilə təltif olundum."

Təbiət müəllim vəzifə kürsüsünə pillə-pillə çatmışdır. Əvvəlcə sex rəisinin müavini vəzifəsinə irəli çəkilmiş, ilk partiya təşkilatının katibi, zavod partiya bürosunun üzvü seçilmişdir. Ali təhsil almağı da unutmamış, istehsalatdan ayrılmadan Azərbaycan Dövlət İncəsənət İnstitutunun qiyabi şöbəsində oxumuşdur.

Bir sözlə, Təbiət Cəfərov göndərildiyi hər sahədə özünü doğrultduğuna görə ona daha çətin və məsuliyyətli vəzifə etibar edilib. İstehsalatda və şəhərin ictimai işlərində yüksək fəaliyyəti nəzərə alınaraq o, 1965-ci ildə Bakı Ali Partiya Məktəbinə oxumağa göndərilmişdir. 1969-cu ildə siyasi təhsilini fərqlənmə diplomu ilə başa vuraraq Sumqayıt Şəhər Partiya Komitəsinin Təşkilat şöbəsində təlimatçı vəzifəsində fəaliyyətini davam etdirmiş, etimadı doğruldaraq daha məsul vəzifələrə irəli çəkilmişdir.

Sadə bir ailədə böyümüş Təbiət Cəfərov nəsillərə örnək həyat keçmişdir. Kimya Sənayesi Birləşmiş Həmkarlar Komitəsinin sədri, 1973-cü ilin dekabrında isə istehsalat birliyində raykom səlahiyyətli partiya komitəsinin katibi seçilmişdir. Həmin dövrlərdə Birliyin bir çox müəssisələrində gerilik yaranmışdı. Bu da şəhərin və respublikanın iqtisadi göstəricilərinin aşağı düşməsinə gətirib çıxarırdı. Məsələ çox ciddi olduğundan Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin I katibi Heydər Əliyevin nəzarəti altında idi. Aparılan siyasi, tərbiyəvi, izahat işləri və tələbkarlığın gücləndirilməsi sayəsində əmək kollektivləri səfərbər olmuş, istehsalat və əmək intizamı möhkəmlənmiş, nəticə etibarı ilə Birlik dövlət planını artıqlaması ilə yerinə yetirmiş, keçici bayrağa layiq görülmüşdür.

Təbiət Cəfərovun kimya sənayesində və partiya işində yüksək vəzifələrdə çalışdığı illər ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf etmişdir. Bu dövrdə Ulu Öndər Azərbaycanın, eləcə də Sumqayıtda mükəmməl neft-kimya infrastrukturunun yaradılması ilə bağlı qaldırılan məsələləri dəstəkləmiş və bu istiqamətdə əlindən gələni əsirgəməmişdir.

T.Cəfərovun söylədiklərindən: "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi illərdə dəfələrlə Sumqayıta gəlmiş, sumqayıtlılarla görüşmüş, müəssisələrə baş çəkmiş, şəhərin problemləri ilə dərindən maraqlanmış, tövsiyə və tapşırıqlarını vermişdir. Yaxşı xatırlayıram, şəhərimizin 25 illik yubileyinə həsr olunmuş konfransda Sumqayıtın gələcək inkişafından inamla söz açır, bu şəhəri bütöv Azərbaycan hesab edirdi.

Onu da yaxşı xatırlayıram ki, Sumqayıtda kimya sənayesindəki vəziyyətlə bağlı müşavirə keçirilirdi. Mən "Kimya Sənayesi" İstehsalat Birliyi Partiya Komitəsinin katibi kimi həmin tədbirə dəvət olunmuşdum. Ulu öndər Heydər Əliyev kimya sənayesinin işini dərindən təhlil edərək yaxşı işlərlə yanaşı, yol verilən nöqsanlara da toxundu, problemlərin həlli yolları ilə əlaqədar tapşırıqlarını bildirdi.

Fasilədə şəhər partiya komitəsinin katibi məni Ulu Öndərə təqdim etdi, haqqımda qısa məlumat verdi. Heydər Əliyev partiya təşkilatının və müəssisələrin işi ilə bağlı mənə suallar verdi, işlərimizlə maraqlandı. Bildirdi ki, "Təmiz işlə, tələbkar ol". Həmin gündən bu dahi insanın tövsiyələri mənim üçün ciddi bir tapşırıq oldu. İşimə, üzərimə düşən vəzifəyə daha məsuliyyətlə yanaşmağa başladım. Tələbkarlığımı artırdım."

Təbiət müəllim 1979-cu ildə Sumqayıt Şəhər Partiya Komitəsində təşkilat şöbəsinin müdiri vəzifəsində fəaliyyətini davam etdirmiş, altı ilə yaxın bu vəzifədə çalışmışdır.

Bu məqamda Təbiət Cəfərovun yaxın dostu, "Sumqayıt" qəzetinin baş redaktoru, Əməkdar jurnalist Qüdrət Məlikovun dediklərinə diqqət yetirmək yerinə düşdü:

- Təbiət müəllimlə ötən əsrin 70-ci illərinin əvvəllərindən tanışıq. Bizim tanışlığımız qısa müddət ərzində səmimi dostluğa çevrildi. O, olduqca saf adamdır, əqidə və mövqe sahibidir. Həyatda belə insanlar az-az olur. Həmin illər mən redaksiya ilk partiya təşkilatının katibi idim. Təbiət müəllim isə şəhər partiya komitəsində təşkilat şöbəsinin müdiri vəzifəsində işləyirdi. Onun təşkil etdiyi tədbirlərdə, yığıncaqlarda iştirak edirdim. Təşkilatçılıq qabiliyyətinə söz ola bilməzdi. İlk görüşdən hamının ürəyinə yol tapa bilirdi.

Bu gün də onun haqqında xoş sözlər söylənilir, dəyərli ziyalı, əqidəsinə sadiq insan olduğu deyilir.

1986-1992-ci illərdə Sumqayıt Şəhər Mədəniyyət Şöbəsinin müdiri vəzifəsində çalışmış, sonrakı əmək fəaliyyəti "Azərikimya" Dövlət Şirkəti ilə bağlı olmuş, xüsusi şöbənin rəisi işləmişdir. 1998-ci ildə isə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyində işlər idarəsinin rəisi təyin olunmuşdur.

Tərcümeyi-halından da aydın olur ki, Təbiət müəllim uzun illər məsul vəzifələrdə çalışıb, on ildən çox şəhər Sovetinin deputatı, 13 il şəhər partiya komitəsinin üzvü olub. İttifaq miqyasında keçirilən yüksək səviyyəli tədbirlərdə, plenumlarda respublikamızı və Sumqayıtı layiqincə təmsil edib.

Harada, hansı vəzifədə işləməsindən asılı olmayaraq Təbiət müəllim öz işinə həmişə məsuliyyət hissi ilə yanaşmış, verilən tapşırıqları vicdanla yerinə yetirmiş, göstərilən etimadı əməli fəaliyyəti ilə doğrulda bilmişdir. Onun qayğıkeşliyi, müsbət keyfiyyətləri, yüksək təşkilatçılıq bacarığı, təşəbbüskarlığı və tələbkarlığı həmişə diqqət mərkəzində olmuşdur. 1969-cu ildən xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi altında işləmiş, dahi şəxsiyyətə həmişə sadiq olmuşdur. İndi də onun siyasi kursunu layiqincə davam etdirən ölkə başçısı Prezident İlham Əliyevin apardığı daxili və xarici siyasəti ürəkdən dəstəkləyir, ictimai həyatımızda yaxından iştirak edir.

Bu gün isə Sumqayıtın göz oxşayan, abad, güclü iqtisadi potensial imkanları ilə qürur duyur. Qürur duyur ki, bu işlərdə onun da az-çox payı, zəhməti var.

Təbiət müəllimin əməyi həmişə yüksək qiymətləndirilmişdir. Çalışdığı qurumlar tərəfindən medalla, döş nişanları və fəxri fərmanlarla mükafatlandırılmışdır.

"Onun böyük ürəyi" kitabı isə Təbiət müəllimin həyatına, şərəfli ömür yoluna işıq tutmuşdur. Bir ata kimi də onun qürur duymağa haqqı vardır. Ailədə cəmiyyətimiz üçün ali təhsilli dörd övlad yetişib. Hər biri ictimai həyatımızda yaxından iştirak edir.

Təqaüdə çıxsa da, iş-güclə, səvimli nəvələri ilə başını qatır. Yaşının müdrik çağında arıçılığı özü üçün sevimli peşə seçib. Doğma eli Şəmkirdə arıçılıq təsərrüfatı yaradıb. Həyatın şirinliyini bu möcüzələr aləmində tapıb. Çöhrəsindən yenə işıq süzülür, qəddi-qaməti də yerində. Şair demişkən, belə qocalasan, qocalanda da...

Bu yazıda "Əqidəsinə sadiq insan"ın - Təbiət Cəfərovun ömür yoluna işıq tutmağa çalışdıq. Bir daha əmin olduq ki, o, həqiqətən əqidəsinə sadiq insandır.

Şəhərimizin qurucularından olan əmək veteranı Təbiət Cəfərovu 80 illik yubileyi münasibətilə təbrik edir, cansağlığı, bol-bol sevincli günlər arzulayırıq.

**Sübhan Qafaroğlu,**
"Qızıl qələm" mükafatı laureatı